**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 sentyabr tarixli, 154 nömrəli qərarı ilə təsdiq edilmişdir**

**1 nömrəli Əlavə**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinə geyim formasının və fərqlənmə nişanlarının verilmə**

**Qaydaları**

1. Bu Qaydalar «Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim formasının və fərqlənmə nişanlarının təsvirinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 28 iyun tarixli, 451 nömrəli Sərəncamına əsasən Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinə geyim formasının və fərqlənmə nişanlarının verilməsi qaydalarını müəyyən edir.

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi «Daxili işlər orqanlarında xidmətkeçmə barədə Əsasnamə»yə uyğun olaraq rəis və sıravi heyətini xüsusi rütbə verilən gündən geyim forması ilə təmin edir. Xüsusi rütbəsi olmayan daxili işlər orqanlarının işçilərinə geyim forması verilmir.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə dövlət büdcəsində nəzərdə tutulmuş, həmçinin büdcədənkənar vəsaitlər hesabına əməkdaşlar geyim forması ilə təmin edilirlər.

4. Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinə geyim formasının və fərqlənmə nişanlarının verilmə normaları əsasında polis orqanlarında hesabat-sifarişlər hazırlanır. Hesabat-sifariş şəxsi heyətin sayı, əvvəllər verilmiş əmlakların istifadə müddətləri və anbardakı qalıq da nəzərə alınmaqla tərtib edilir.

Ümumiləşdirilməsi üçün orqanlardan göndərilən həmin hesabat-sifarişlər araşdırılır, Daxili İşlər Nazirliyinin bazasındakı əmlaklar da nəzərə alınmaqla cari il üçün təchizat xidməti tərəfindən yekun təchizat planı sifariş əsasında tərtib edilir.

Ayrılmış vəsait həcmində Daxili İşlər Nazirliyi qanunvericiliklə müəyyən edilmiş qaydada geyim əmlakının hazırlanması və alınması üçün sifariş verir. Sifariş üzrə hesablaşmalar köçürmə yolu ilə aparılır.

5. Geyim formaları və fərqlənmə nişanları alınıb müvafiq qaydada uçota götürüldükdən sonra daxili işlər orqanlarının hər bir əməkdaşı üçün açılmış fərdi armatur vərəqləri əsasında müvafiq məxaric sənədləri hazırlanır. Həmin məxaric sənədləri əsasında əməkdaşın xidmət etdiyi daxili işlər orqanı geyim forması ilə təmin edilir.

6. Paqonlar, ilgəklər, paqonlar üçün fərqləndirici nişanlar, emblemlər, kokardalar, düymələr, qalstuk sıxacları, furajka kəmərləri, qol nişanları (fərqlənmə nişanları) şəxsi heyətə geyim formalarına aid olan əşyalarla birlikdə verilir.

7. Daxili İşlər Nazirliyinin əməkdaşına xüsusi rütbə verildikdə və ya onun xidmət sahəsi dəyişdikdə, həmin əməkdaşa verilmiş, lakin istifadə müddəti bitməmiş geyim forması verilmiş xüsusi rütbəsinə uyğun və ya dəyişilmiş xidmət sahəsində istifadə olunan geyim formasından xarici görünüşünə və rənginə görə fərqlənmirsə, əvvəllər verilmiş geyim formasından istifadə edilmə müddəti davam etdirilir, həmin əməkdaş verilmiş xüsusi rütbəsinə müvafiq paqon və fərqlənmə nişanı ilə təmin edilir. Əks halda əməkdaş verilmiş xüsusi rütbəsinə və ya xidmət sahəsinə müvafiq geyim forması ilə təmin olunur.

8. Zərurət yaranarsa, Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinə təchizat xidməti tərəfindən verilmiş geyim forması orderi əsasında Daxili İşlər Nazirliyinin tikiş emalatxanasında geyim formasının tikilməsi sifariş olunur. Geyim formasının tikilməsinin dəyərinin ödənilməsi maliyyə xidmətinin müvafiq sənədlərinə uyğun aparılır.

9. Müəyyən edilmiş geyim formasının və fərqlənmə nişanlarının istifadə müddəti bitdikdən sonra əməkdaşa təzə geyim əmlakı verilir. Müvafiq hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikası müdafiə, daxili işlər, milli təhlükəsizlik nazirliklərinin, Azərbaycan Respublikası Dövlət Sərhədinin Mühafizə Komitəsinin və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər hərbi birləşmələrin hərbi qulluqçularını, sıravi və rəis heyətinə mənsub şəxslərini ərzaq payı və pul vəsaiti ilə təmin etmək haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 19 may tarixli, 271 nömrəli qərarına əsasən əməkdaşa geyim formasının əvəzinə Daxili İşlər Nazirliyi tərəfindən Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla müəyyən edilən qaydada pul kompensasiyası ödənilir.

10. Daxili işlər orqanlarından müəyyən edilmiş mənfi hallara görə xaric edilmiş əməkdaşlardan istifadə müddəti bitməyən geyim əmlakının dəyəri tutulur.

11. Əməkdaşa geyim formaları və ya onun əvəzinə pul kompensasiyasının verildiyi gündən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən bu barədə qeydlər aparılır.

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 sentyabr, № 9.- S. 4017-4018.**